*Nizami Gəncəvi ilinin düşüncələri*

# KLASSİK POEZİYADAN PRAKTİKİ ARXEOLOGİYAYA



*Qafar* Cəbiyev
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, professor***

Böyük xalqlar əhalisinin sayı ilə deyil, daha çox bəşər elminə və mədəniyyətinə bəxş etmiş olduqları düha və tarixi şəxsiyyətlərlə tanınır. Hansı ki, həmin insanların təkcə mənsub olduqları xalqın, ölkənin deyil, bütövlükdə bəşəriyyətin ümumi inkişafında çox mühüm xidmətləri olub. Nə xoş ki, Azərbaycan xalqı da zaman-zaman dünyanın elm və mədəniyyət xəzinəsini və ictimai fikir tarixini zənginləşdirmiş olan çoxsaylı nadir dühalar yetirmişdir. Əzəməti və böyüklüyü dünyanın hər tərəfindən görünən, qəbul və səcdə olunan belə dühalarımızdan birisi də bu il anadan olmasının 880 illiyi qeyd olunan ulu şairimiz Nizami Gəncəvidir. Etiraf edək ki, bu dahi söz ustadının zəngin irsini öyrənmək və xatirəsini əbədiləşdirmək istiqamətində həm sovet dönəmində, həm də müstəqillik illərində Azərbaycanda və respublikanın hüdudlarından kənar yerlərdə olduqca böyük və yaddaqalan işlər görülmüşdür. Məsələn, bir neçə il öncə elmi ezamiyyət ilə bağlı Romada olarkən şəhərinin lap mərkəzi hissəsində yerləşən məşhur Borgezi parkının ən görkəmli yerində Nizami Gəncəvinin tuncdan çox böyük zövqlə hazırlanmış möhtəşəm abidəsini görəndə bir anlığa sanki ürəyim dağa döndü. Həmin missiyanı uğurla həyata keçirmiş olan Heydər Əliyev Fonduna, onun rəhbəri, çox hörmətli Mehriban xanıma qəlbimin dərinliklərdən gələn nidalarla bəlkə də min yol «əhsən» dedim.

Bu cür qürurverici misalların sayı istənilən qədərdir. Bundan da daha artıq qürurverici məqam isə odur ki, ölkə prezidenti cənab İlham Əliyevin «Azərbaycan Respublikasında 2021-ci ilin «Nizami Gəncəvi ili» elan edilməsi haqqında» 05 yanvar 2021-ci il tarixi Sərəncamı qarşıdakı dönəmdə dahi söz ustadının elmi-nəzəri və bədii irsinin öyrənilməsi və xatirəsinin əbədiləşdirilməsi istiqamətində yeni üfüqlər açmış oldu. Bəli, Prezident Sərəncamında deyildiyi kimi «Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır». Ümid edək ki, Prezident Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq ölkəmizdə Nizami irsi bundan belə daha dərindən və hərtərəfli araşdırılacaqdır. Hesab edirəm ki, bunun üçün ilk növbədə Nizami Gəncəvinin əsərlərinin ana dilimizdə tam küliyyat halında, əhatəli elmi şərhləri də daxil olmaqla yenidən nəşri olduqca aktualdır. Nəzərə alınmalıdır ki, Nizaminin əsərləri sadəcə kamil bədii əsər nümunələri deyil. Bu əsərlər həm də demək olar ki, bütün elm sahələrinə dair çox qiymətli məlumat toplusudur. Odur ki, Nizami əsərlərinin elmi-tənqidi nəşrinə şərhlərin hazırlanmasına ədəbiyyatşünas alimlərlə yanaşı digər sahələrə aid elm adamlarının da cəlb olunması məqsədəuyğun olardı.

Təbiidir ki, tarixçi alimlər Nizami irsinə hər şeydən öncə məhz tarixi mənbə kimi yanaşır və hesab edirlər ki, bu küliyyat Azərbaycanın Orta əsrlər tarixini daha dolğun və daha dəqiq araşdırmaq baxımından olduqca dəyərli elmi mənbədir. Bu dövrə aid yazılı qaynaqların qıt olduğunu da nəzərə almış olsaq, onda Nizami yaradıcılığının məhsulu olan əsərlərin Orta əsrlər tariximizin önməli bir dövrünün araşdırılması baxımından nə dərəcədə mühüm elmi əhəmiyyəti olduğunu daha aydın hiss etmiş olarıq. Bu yerdə dahi söz ustadının əsərlərinin həm də dəyərli tarixi mənbə olduğuna dair yuxarıda söylənilən tezisə dair konkret misallar üzərində dayanmaq istərdim. Məsələn, Azərbaycanın Orta əsr şəhərlərində sənətkarlığın durumunu araşdırmaq məqsədi ilə Nizami əsərlərini ötəri vərəqləyərkən təkcə dulusçuluq sənəti ilə, dulus məmulatının hazırlanması, istifadəsi, reallaşdırılması, dulusçu ustaların sosial-məişət şəraiti ilə bağlı son dərəcə mühüm elmi dəyəri olan məlumatlarla rastlaşırıq. Onlardan bəzi nümunələri təqdim edirik. Məsələn, məşhur «İskəndərnamə» poemasından götürülmüş aşağıdakı beytlərdə o dövrün məclislərində «kəhrəba rəngli» şərabın saxsı qədəhlərlə içildiyindən bəhs edilir:

Saqi, ol xəyallı şərab ilə dur,
Kəhrəba rəngli bu saxsını doldur.
Bu qara torpaqdan süzülən gövhər
Şənlətsin qəlbimi, qalmasın kədər

Azərbaycanın Orta əsr şəhərlərində aparılan arxeoloji tədqiqatlar zaman aşkar olunan çoxsaylı və rəngarəng çeşidli keramika nümunələrinin böyük bir hissəsi məişət və təsərrüfatda istifadə olunan su qablarıdır. Onlar içərisində də daha çox bulaq və ya hovuzdan su götürmək, süfrəyə su, meyvə şirələri və ya şərab qoyulması üçün istifadə olunan kuzə tipli qablardır. Bu qablar adətən yaxşı ələnmiş, qum qatışıqlarından tam olaraq təmizlənmiş narın və yağlı gildən istifadə edilməklə dulus dəzgahında hazırlanırdı. Bu qəbildən olan süfrə qabları yüngül və nəfis olsun deyə ustadlar onların mümkün qədər nazik divarlı olmalarına xüsusi diqqət yetirirdilər. Saxsı kuzələr ustanın və ya sifarişçinin zövqündən asılı olaraq şirli və ya şirsiz ola bilirdi. «İskəndərnamə» poemasından götürülmüş aşağıdakı beytlərdə də məhz elə saxsı kuzələrdən bəhs olunur:

Boş, quru kuzənin ağzını açdı.
Doldurmaq fikrilə vurdu daş hövzə,
Əlində qırıldı o saxsı kuzə

Arxeoloji tədqiqatlar zamanı aşkar olunan keramika nümunələrinin böyük bir qulpunu saxsı küplər təşkil edir. Küplər ölçüsünə, formasına və təyinatına görə müxtəlif olurdu. Bu cür qablar adətən, taxıl, un, meyvə qurusu, şərab və turşular saxlanması üçün istifadə olunurdu. Küplər irihəcmli olduğundan onları hazırlamaq və kürədə yerləşdirərək bişirmək o qədər də asan olmurdu. Bu səbəbdən saxsı küplərin istehsalı ilə daha çox məhz peşəkar ustalar məşğul olurdu. Həcmi iri olduğundan evdə, anbarda və mətbəxdə çox yer tutmasın deyə, küpləri adətən divarların kənarı boyunca ağzının kənarına qədər yerə basdırır və ağzını da döşəmə ilə eyni səviyyədə olan xüsusi qapaq və ya yastı daşla örtürdülər. Bu isə onların həm də təsadüfi xətalar ucbatından sındırıla bilmək ehtimalını da tam olaraq azaltmış olurdu. Bu baxımdan ölməz şairin «Yeddi gözəl» poemasında yer alan və iri təsərrüfat küplərindən həm də mətbəxdə içməli su ehtiyatı saxlanılmasında istifadə olunduğundan xəbər verən aşağıdakı beyti xüsusi maraq doğurur:

Küp demə, küp demə, quyudur quyu,
Kərpic divarlara qalxmışdı suyu.





Şair burada «quyudur, quyu» deməklə sözsüz ki, küplərin həcmcə iri və dərin olmasını nəzərdə tuturdu.

«Yeddi gözəl» poemasında yer alan «Boyaq dükanında dörd küpsən ancaq», «Gecə boyaqçı tək küpünü atdı» və bu kimi beytlərindən aydın olur ki, Orta əsrlərdə saxsı küplərdən ərzaq məhsulları saxlamaqdan əlavə, həm də boyaqçılıq üzrə ixtisaslaşmış dükan və emalatxanalarda da geniş istifadə olunurmuş. Xatırladaq ki, Orta əsr Ağsu şəhərində tədqiqatlar zamanı boyaqçı emalatxanası və onun içərisində boyaq məhlulu saxlanılması məqsədi ilə istifadə olunmuş 4 ədəd küp aşkar olunmuşdur ki, onların da birində qırmızı, digər üzündə isə çəhrayı boya qalıqları aşkar olunub. Tədqiqatlar zamanı o da aydın olmuşdur ki, həmin küplərdən aşkar olunan çəhrayı boya regionda geniş yayılmış boyaqotu bitkisindən alınıb.

«Yeddi gözəl» poemasından götürdüyümüz aşağıdakı beytdən isə belə məlum olur ki, Orta əsrlərdə saxsı qabların satışı ilə xüsusi adamlar məşğul olurmuş:

Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular.

Məlum olduğu kimi, arxeoloji qazıntılar nəticəsində tapılmış zəngin keramika məmulatı müxtəlif ornamentlərlə bəzədilmişdir. Bu sözlər həm şirsiz, həm şirli, həm də inşaat kiramikasına aiddir. Saxsı qablar üzərindəki təsvirlər bir çox hallarda elə məharətlə işlənmişdir ki, onların yüksək peşə hazırlığına malik rəssamlar tərəfindən çəkildiyi əsla şübhə doğurmur. Ola bilsin ki, Nizaminin «Yeddi gözəl» poemasından götürülmüş aşağıdakı beytlər də məhz dulusçu rəssamların əməyinə işarədir:

On naxış vursa da bir nəqqaş əgər,
Əsas bir cizgidən sanma əl çəkər
Bir cizgi naxışdan çıxarsa kənar
Başqa cizgilər də bütün pozular.

Aşağıdakı misralar isə Nizaminin yaşadığı dövrdə əhalinin güldan tipli qablardan da istifadə etdiyindən, həmin qabların zəngin nəbati elementlərlə bəzədildiyindən xəbər verir:

Saxsı güldan reyhanla bəzənmiş,
Ancaq bu reyhanlar meşədən gəlmiş

Ölməz şair daim torpaqla, su ilə əlləşən, min bir əzab və zəhmətə qatlaşan kərpickəsən ustanın işini hələ halal zəhmətin tamı dadmayan bir gəncin dilindən belə qələmə alıb:

Bu nə əzab, zəhmətdir, çəkirsən,
Saman və torpaq daşımaq uzunqulağın sənətidir.
Kəsəklərlə özünə nə qədər əziyyət verəcəksən,
Torpaq və su ilə nə qədər qurdalanacaqsan.

Əlbəttə, zəhmətkeş kütlələr hesabına yeyib-içib şənlənən, bütövlükdə təmtəraqlı həyat tərzi yaşayan varlı təbəqələrin nümayəndələri orta əsr dulusçusuna da kərpickəsən ustaya baxdıqları gözlə baxmışlar. Lakin nə ağır iş və məişət şəraiti, nə də onları əhatə edən qeyri-humanist mühit dünya mədəniyyəti xəzinəsinə solmaz sənət inciləri bəxş etmiş Orta əsr Azərbaycan dulusçularını bu qədim xalq sənətindən yayındıra bilməmişdir. Yeri gəlmişkən onu da xatırladaq ki, Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı demək olar ki, bütün Orta əsr şəhərlərimizdən tapılmış gildən hazırlanmış mətbəx qablarında Nizaminin «Yeddi gözəl» poemasından məlum olan Bəhram Gurun ov səhnəsinin təsviri verilmişdir. Nizami əsərlərindən götürülmüş bənzər motivlərlə bəzədilmiş keramika nümunələri maraqlıdır ki, Türkmənistan, Qazaxıstan, Özbəkistan və Volqaboyu abidələrindən də məlumdur.

Azərbaycan xalqının XII əsrdə yaşamış digər böyük mütəfəkkir şairi Xaqani Şirvaninin yaradıcılığında da dulusçuluq sənətilə bağlı motivlərə tez-tez təsadüf edirik. Dodağı saxsıya bənzədən Xaqani saxsı kasanı özünə dərman bilir:

Dodağım saxsı, üzüm torpağa dönmüşdü mənim,
Daş olub canım inan, saxsı kasa dərmanım.

Saxsı kasanı qızıl camdan üstün tutmaqla Xaqani özünün yoxsullar şairi olduğunu bir daha təsdiq edir. Bu cəhətdən onun aşağıdakı beytləri xüsusi maraq doğurur:

Ağlaram yar mənə versə qızıl camda mey
Öpərəm saxsı saxsı kasa, versə əgər canənim.
Torpağam, saxsı qədəhlə içərəm qırmızı mey,
Az qızıl cam adını çək, o deyil imanım.

***(Davamı 13-cü səhifədə)***

01 oktyabr 2021-ci il KREDO

# KLASSİK POEZİYADAN PRAKTİKİ ARXEOLOGİYAYA



(Əvvəli 5-ci səhifədə)

Bu sətirlərdən aydın olur ki, istər Nizaminin, istərsə də Xaqaninin yaşayıb yaratdığı XII əsrdə saxsı qablar metal qablarla müqayisədə xeyli ucuz olmuş və təbiidir ki, onların əsas alıcısı və istifadəçisi də əhalinin yoxsul təbəqələri olmuşdur.

Saxsı çanaqlar əsrlər boyu əhali üçün bir növ ölçü vahidi olub. Bu baxımdan aşağıdakı misralar bədii düşüncə məhsulu olmaqdan görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin:

*Çıxdı içimdən tütün, çərxi boyadı bütün,*
*Gör ki, nə ataşdəyəm, gör nə qədər yanaram,*

- beytindən aydın olur ki, Azərbaycanda tütündən istifadə indiyədək güman edildiyindən ən azı iki əsr qabaq məlum imiş. Bu da öz növbəsində gil qəlyanların meydana gəlməsi tarixini xeyli qabağa çəkmək barədə düşünməyə əsas verir.

Dulusçuluq sənətilə bağlı motivlərə XVII əsr Azərbaycan şairi Saib Təbrizinin yaradıcılığında da rast gəlirik. Aşağıdakı misralar bu cəhətdən xarakterik nümunə hesab edilər bilər:

*Ya kuzə, ya qədəh, ya mey üçün cam düzələr,*
*Bir ovuc torpağı getməz hədərə meygədənin.*

Burada şair gildən hazırlanan kuzə, qədəh və camın adını çəkməklə sanki sonrakı nəsillərə bildirir ki, həmin qablardan onun yaşadığı dövrdə də geniş istifadə olunmuşdur.

Tariximizdən, onu özündə yaşadan abidələrimizdən bəhs edən yüzlərlə məqalə, çoxsaylı əsərlərin adını çəkmək olar ki, onların əksəriyyəti ölməz şairimiz Səməd Vurğunun aşağıdakı misraları ilə başlayır və ya bitir.

Kim bilir neçədir dünyanın yaşı,
Hər saxsı parçası, hər məzar daşı
Nəsildən-nəsilə bir yadigardır...







əlavə həm də qiymətli tarixi mənbə kimi dəyərləndirilə bilər:

*Mən cəvahirci müqəm, saxsı küp isə mücrüm,*
*Ölçülür saxsı çanaqla gövhərim, mərcanım*

Ölməz şairin aşağıdakı beyti isə saxsı qədəhlərdən içki qabı kimi geniş istifadə olunduğunu yəqinləşdirmək baxımdan diqqət çəkir:

*Torpaq ətrini duyub saxsı qədəhlər tükümün*
*Hər biri ətir saçar, sanki güli reyhanım.*

Orta əsrlərdə, xüsusən də XI-XII əsrlərdə çıraqlarda yanacaq kimi yağdan, yoxsa neftdən istifadə olunduğuna dair tədqiqatçılar arasında müxtəlif mülahizələr var. Xalq məişətinə dərindən bələd olan Xaqani isə yanacaq kimi yalnız yağın adını çəkərək belə yazır:

*Fitili nazik olub, tükənərsə yağ,*
*Titrəyib sönməzmi bir anda çıraq?*

Arxeoloji qazıntılar zamanı tapılmış şarkonusvarı qablar barədə çox yazılıb. Bu tip qabların təyinatı ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı bu gün də davam etməkdədir. Belə ki, bəziləri həmin qablardan içərisində partlayıcı maddə doldurub düşmən mövqelərinə atmaq üçün, bir başqaları isə bu qablardan ətir saxlamaq üçün istifadə olduğunu güman edirlər. Tədqiqatçılardan bir qismi isə bu qabların civə qabı olduğunu bildirirlər. Bizcə Xaqaninin «civə qabı ağzı kimi bərk bağlanıb ver əlləri» beyti də sonuncu mülahizəyə haqq qazandırır.

Arxeoloqlar üçün elmi cəhətdən əhəmiyyətli olan məsələlərdən biri də Azərbaycan ərazisində gil qəlyanların nə vaxtdan meydana gəldiyini müəyyənləşdirməkdir. Hələlik tədqiqatçılar gil qəlyanların Azərbaycan ərazisində yalnız XVI əsrin sonlarından etibarən meydana çıxdığını güman edir və bunu tütünün məhz XVI əsrdə Amerikadan Avropaya, oradan Rusiyaya və nəhayət, Azərbaycana gətirilməsi ilə əlaqələndirirlər. Lakin

Şair "Bakının dastanı" poemasında Şirvanşahlara aid muzey və fondlarda mühafizə olunan zəngin və rəngarəng çeşidli keramika nümunələrini belə tərənnüm edib:

Hələ qablar, saraydakı saxsı qablar
Tufan görüb dəyişməmiş rəngini....
O qablarda nə lövhələr, surətlər var!

Burada şairin çox incə bir məqama toxunduğunu xüsusilə qeyd etmək yerinə düşər. Yəni, söhbət yüz illər, min illər öncə ulu babalarımızın istehsal etdiyi saxsı qablar əvvəl necə olubsa, bu gün arxeoloji qazıntılar nəticəsində tapdığımız zaman da eyni vəziyyətdədir. Bu da məmulatın yüksək keyfiyyətlə hazırlandığından xəbət verir.

«Muğan» poemasında Mingəçevir qəhrəmanlarından ürəkdolusu söhbət açan şair orada yorulmaq bilmədən elmi axtarış aparan arxeoloq alimlərin işini də nəzərdən qaçırmayıb:

*Külət əsir, qum sovrulur, gözə girir toz-torpaq,*
*Qoca alim Yer altından ayrılmayır hələ ancaq*
*Gah tər basır vücudunu, gah büdrəyir, gah yıxılır*
*Yer darısqal, hava tozlu, nəfəs durur, can sıxılır*
*Alim yenə qucaq-qucaq yığır qədim saxsıları,*
*Yer altındakı hər kərpicin üzərindəki yazıları.*

Yeri gəlmişkən onu da bildirək ki, S.Vurğunun «Muğan» pomması hələlik Azərbaycan poeziyasında arxeoloq alimlərin işindən təfsilatı ilə bəhs olunan ilk və sonuncu əsər olaraq qalır.

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gələ bilərik ki, Azərbaycanın klassik söz ustaları öz əsərlərində dulusçuluq sənətilə bağlı məsələlərə bu və ya digər dərəcədə toxunmuşlar. Bu da sözsüz ki, arxeoloqların tapıb üzə çıxardığı zəngin keramika məmulatının dərindən və hərtərəfli öyrənilməsi baxımından çox böyük elmi əhəmiyyət kəsb edir.

**2021**